*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received :19.07.2023*
*Kabul tarihi |Accepted: 15.08.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Abbas Əhmədov**

*https://orcid.org/0000-0002-2405-9440*
*Nakhchivan State University, Doctor of Philosophy Azerbaijan, abbas-ahmadov@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Əhmədov, A. (2023). Heydər Əliyevin Siyasi Strategiyası Sülh və Əməkdaşlıqdır. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 165-173.

# Heydər Əliyevin Siyasi Strategiyası Sülh və Əməkdaşlıqdır

***Xülasə***

*Ümummilli lider Heydər Əliyev regionda Sulh və əməkdaşlığın bərqərar edilməsi uğrunda daim səylər göstərmişdir O, dünyanın müxtəlif güc mərkəzləri arasında Azərbaycanın milli mənafeyini ifadə edən xarici siyasət kursunun tarazlığını təmin etməyi bacarmışdır. Bütün bunların sayəsində Azərbaycan çoxşaxəli diplomatik əlaqələr qura bilmiş və ən nüfuzlu beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvü olmuşdur. Azərbaycan indi BMT, ATƏT, Avropa Şurası, MDB, GÜAM, İslam Əməkdaşlıq Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının və*

*digər beynəlxalq qurumlarda təmsil olunur. 1994-cü ildən NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuşdur.*

***Açar sözlər:** Heydər Əliyev, Sülh, Əməkdaşlıq, Beynəlxaiq siyasət,strategiya*

## Hayder Aliyev's Political Strategy is Peace and Cooperation

***Abstarct***

*National leader Heydar Aliyev has constantly made efforts to establish peace and cooperation in the region. Thanks to all this, Azerbaijan was able to establish multifaceted diplomatic relations and became a member of the most influential international organizations, unions, economic and financial institutions. Azerbaijan is now represented in the UN, OSCE, Council of Europe, CIS, GUAM, Organization of Islamic Cooperation, Black Sea Economic Cooperation Organization and other international organizations. Since 1994, it has joined NATO's "Partnership for Peace" program.*

***Keywords:** Haydar Aliyev, Peace, Cooperation, International policy, strategy*

### Giriş

Müstəqillik əldə edildikdən sonra gənc Respublikamızın üzləşdiyi bir sıra çətinliklər və problemlər müstəliyimiz üçün ciddi təhlükə yaradırdı. Azərbaycan cəlb edildiyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsinin yaratdığı çətinliklər və müstəqilliyin ilk illərində Azərbaycana səriştəsiz rəhbərlik üzündən yaranan problemlər bu ölkəni parçalanmağa və müstəqilliyini itirməyə doğru sürükləyirdi. Qeyd olunan dövrdə Azərbaycanın müstəqilliyindən və müstəqil xarici siyasətindən söz gedə bilməzdi. Azərbaycanın xarici siyasəti bir müddət bütövlükdə Rusiyaya meyillilik strategiyası təşkil edirdi. Beynəlxalq və Regional baxımdan təmamilə səhv olan bu siyasətə imperiyanı qoruyub saxlamaq və Azərbaycanın bu qurumun tərkibindən ayrılmasına yol verməməkdən başqa bir ad vermək olmazdı.

1991-1992-ci illərdə xarici siyasət sahəsində respublikamızın beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsinə yönəldilən ardıcıl xarici siyasət kursunun hazırlanıb həyata keçirilməməsi, bəzi dövlət rəhbərlərinin səriştəsiz addımları və məsuliyyətsiz bəyənatları Azərbaycanın beynəlxalq nüfuzuna olduqca mənfi təsir göstərirdi. Btün bunlar dünya və region dövlətləri ilə münasibətləri kəskinləşdirirdi (Heydər Əliyev. Minilliklərin qovşağında, 2001). Məhz belə çətin şəraitdə, Azərbaycan kimi bir dövlətin dünya xəritəsindən silinmək təhlükəsi yarandığı bir zamanda xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev Azırbaycanın siyasi səmasında günəş kimi parlayaraq öz xilaskarlıq missiyasına başladı.

1993-cü ilin ikinci yarısından bəri hazırlanıb həyata keçirilən xarici siyasətimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Məhz onun təşəbbüsü və rəhbərliyi altında Azərbaycanın xarici siyasət kursu özünün mahiyyəti və məzmunu etibarilə elmi əsasda dərindən düşünülmüş konsepsiyaya söykənərək hazırlanmağa başlandı. Lakin nə qədər yaxşı hazırlanmış bir konsepsiya olsa da, həyata keçirilməsi üçün əlverişli lazımi şərait yaradılmazsa, həmin konsepsiya kağız üzərində qalar 4. Odur ki, hər şeydən əvvəl yeni xarici siyasət xətti üçün dinc şərait təmin edilməli idi. Bunun üçün müharibəni dayandırmaq və daxildə sabitlik yaratmaq lazım idi. Bu məqsədlə də 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı. Ancaq bundan sonra, sakit bir şəraitdə dərindən düşünülmüş, hərtərəfli ölçülüb-biçilmiş yeni və fəal xarici siyasət xəttinin həyata keçirilməsinə başlandı. Buraxılan səhvləri, yol verilmiş nöqsanları nəzərə alaraq, beynəlxalq aləmdə atılacaq hər bir addımda ehtiyatla hərəkət etmək, daxili məsələlərə, birinci növbədə iqtisadi islahatlar məsələlərinə diqqəti artıraraq qüvvə toplamaq lazım idi. Xarici siyasətlə daxili siyasəti üzvü vəhdət halında üzlaşdıran ulu öndər yeni dövrün tələblərini və müstəqil dövlətimizin qarşısında duran vəzifələri də nəzərə alaraq Azərbaycanın çiçəklənməsini, iqtisadi yüksəlişini və beynəlxalq nüfuzunun möhkəmlənməsini təmin edən xarici siyasət konsepsiyasını hazırladı və həyata keçirdi. Prezident Heydər Əliyev bütün amilləri nəzərə alaraq əqlin, zəkanın, zəngin təcrübənin gücünə arxalanaraq Azərbaycanın yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyən etdi. Bu yeniləşmiş xarici siyasət xətti ilk növbədə bir sıra ən mühüm və ən başlıca təxirəsalınmaz vəzifələri yerinə yetirməli idi. Həmin vəzifələrdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, Azərbaycan əleyhinə yaradılmış fikir cəbhəsini darmadağın etmək, haqq işimizi dünya dövlətləri və dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Digər mühüm vəzifələrdən biri də bəzi dövlətlərlə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan götürməkdən, xarici ölkələrlə münasibətdə tarazlaşdırılmış xarici siyasət xəttini təmin etməkdən ibarət idi. Heydər Əliyev Müstəqil Azərbaycan Respublikasının demokratik, dünyəvi, hüquqi dövlət qurucusu olmaqla yanaşı, özünün siyasi dühası ilə düşünülmüş və düzgün seçilmiş xarici siyasət kursu sayəsində qısa bir müddətdə çətinlikləri aşaraq Azərbaycanı dünyaya tanıtdı. Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqe sahibi olmasını təmin etmək, onun zorla cəlb edildiyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini dünyaya çatdırmaq məqsədilə Heydər Əliyevin xarici ölkələrə tarixi səfərləri başladı. Ulu öndərin 90-cı illərin

əvvəllərində Fransaya, Türkiyəyə, Rusiya Federasiyasına, Böyük Britaniyaya, Amerika Birləşmiş Ştatlarına və digər ölkələrə Rəsmi səfərləri, keçirdiyi görüşlər, eləcə də, dünyanın respublikamıza gələn dövlətlərin nümayəndələri ilə aparılan danışıqlar Azərbaycanın beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxmasında, müstəqilliyinin təminatında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında və Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynadı.

Xarici siyasətimizin vəzifələri, onun başlıca istiqamətləri, əsas prinsipləri, milli mənafe və yerli şəraitdən gələn xüsusiyyətləri ulu öndərin çıxışlarında, konkret göstərişlərində, beynəlxalq aləmdə atdığı əməli addımlarında yaradıcılıqla inkişaf etdiriləræk təkmil bir proqrama çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin proqram xarakterli xarici siyasət konsepsiyası Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında qəbul edilmiş Konstitusiyasında qanunvericilik yolu ilə təsbit olundu (Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995, qanun 2009). Ümummilli lider Heydər Əliyevin xarici siyasətində əsasasən aşağıdakı istiqamətlər diqqət mərkəzində saxlanılmışdır:

-Region dövlətləri ilə, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan mehriban qonşuluq münasibətlərinin qurulması;

-Türkdilli dövlətlərlə bütün sahələrdə yaxından əməkdaşlıq etmək və sıx münasibətlərin yaradılması;

-Müasir beynəlxalq münasibətlər sisteminin əsas iştirakçısı və beynəlxalq siyasi proseslərə ən güclü təsir etmək imkanlarına malik olan Amerika Birləşmiş Ştatları ilə xüsusilə yaxın əlaqələrin qurulması;

-Avropa İttifaqı ölkələri ilə sıx inteqrasiya siyasətinin həyata keçirilməsi;

-Beynəlxalq və regional təşkilatlarla qarşılıqlı əlaqələrin qurulması və onların işində fəal iştirak etmək;

-Beynəlxalq münasibətlər sistemində Rusiya faktorunu gözardı etməmək.

Azərbaycan Respublikasının dünyanın aparıcı dövlətləri və region dövlətləri ilə əlaqələri beynəlxalq hüquq normalarına, beynəlxalq prinsiplərə tam uyğun tərzdə, mehriban qonşuluq və qarşılıqlı Faydalı əməkdaşlıq şəraitində yenidən quruldu. Regionda nüfuz sahibi olan və regiona təsir imkanlarına malik ölkələrlə qarşılıqlı Faydalı münasibətlərin yaradılmasına xüsusi diqqət yetirildi. Bu baxımdan Rusiya ilə münasibətlərdə dəyişiklik edildi və qısa müddətdə bu ölkə ilə gərginlik aradan qaldırıldı və əməkdaşlıq genişləndirildi. Azərbaycan Respublikası MDB üzvlüyünə daxil oldu. Ulu öndər qeyd edirdi ki, “Biz MDB çərçivəsindən kənarda olduğumuz vaxtdakı vəziyyətimizi araşdırdıq və belə qənaətə gəldik ki, MDB

çərçivəsindən kənarda qalmaq ölkənin qarşısında duran problemlərin həllinə kömək etmir" (Azərbaycan beynəlxalq aləmdə, 1996).

Prezident Heydər Əliyev bacarıqlı və son dərəcə təcrübəli dövlət başçısı, yetkin siyasi xadim olaraq, xarici siyasət sahəsində çox çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Azərbaycana, onun yeni siyasət xəttinə və mövqeyinə inam yaratdı. Azərbaycan tezliklə dünyanın bütün aparıcı dövlətlərinin maraq mərkəzinə çevrildi. Ulu öndərin çoxtərəfli gərgin fəaliyyəti sayəsində Azərbaycan Respublikası Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qoşuldu və burada öz layiqli yerini tutdu.

ABŞ-ın siyasət aləminin tanınmiş xadimlərindən sayılan Zbiqnev Bzejinski Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin siyasi təhmin və uzaqgörənliyini yüksək qiymətləndirmişdir. Zbiqnev Bzejinski Corcnon Universitetindəki görüş zamanı Heydər Əliyevi Azərbaycanda demokratıyanın və fikir plüralizminin, yeni iqtisadi və siyası münasibətlərin qarantı adlandırdı (Azərbaycan qəzeti 12 oktyabr 2001).

Dünyanın aparıcı dövlətləri, xüsusi ilə də ABŞ-la münasibətlərin nizama salınıb qarşılıqlı faydalı əməkdaşlıq istiqamətində inkişaf etdirilməsi sahəsində Heydər Əliyevin xidmətləri misilsizdir.

1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan Respublikasının dünya və region dövlətləri ilə əməkdaşlığında yeni dönüş mərhləsinin başlanğıcı oldu. "Əsrin müqaviləsi"nin əhəmiyyətindən bəhs edən ümummilli lider Heydər Əliyev demişdir: "Əsrin müqaviləsinin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı və bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli olduğunu tarixçilər yazacaqlar" (Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi, 2007). "Əsrin müqaviləsi"nin bağlanması ilə Azərbaycan Respublikasının genişlənən və möhkəmlənən beynəlxalq əlaqələri zəminində Azərbaycanın haqq işi də dünya ölkələrinə tanıdıldı. Dünyanın fövqal dövləti olan ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıdı. Münaqişənin dinc yolla Azərbaycanın ərazi bütövlüyü əsasında həllini dəsdəkləyən ABŞ-ın o vaxtkı prezidenti Bil Klinton bəyənatında göstərirdi: "Amerika Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləməkdə davam edir. Geniş səpkili əlaqələri inkişaf etdirməklə biz Amerika- Azərbaycan əlaqələrini genişləndirəcək, əbədi olaraq suveren və çiçəklənəm Azərbaycan dövlətinin qurulmasında Heydər Əliyevin səylərinə kömək etməkdə davam edəcəyik" (Mirzəzadə, 1998). Ermənistan-Azərbaycan Dağlıq Qarabağ mübaqişəsinin həlli istiqamətində ulu öndərin gərgin diplomatik səyləri böyük uğurlarla nəticələndi. ATƏT-in Budapeşt, Lissabon və İstanbul zirvə toplantılarında Azərbaycanın haqlı mənafelərini əks

etdirən prinsipləri birmənalı şəkildə dəstəklədi. Xüsusilə Lissabon Sammitində ATƏT-in 54 üzvündən 53-ü Azərbaycanın ərazi bütövlüyünü, Dağlıq Qarabağın Azərbaycan ərazisi olmasını bəyan etdi.

Ümummilli lider Heydər Əliyev regionda möhkəmlənmək uğrunda mübarizə aparan dünyanın müxtəlif güc mərkəzləri arasında Azərbaycanın milli mənafeyini ifadə edən xarici siyasət kursunun tarazlığını təmin etməyi bacarmışdır. Bütün bunların sayəsində Azərbaycan çoxşaxəli diplomatik əlaqələr qura bilmiş və ən nüfuzlu beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvü olmuşdur. Azərbaycan indi BMT, ATƏT, Avropa Şurası, MDB, GÜAM, İslam Əməkdaşlıq Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq qurumlarda təmsil olunur. 1994-cü ildən NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuşdur. Ulu öndərin uzaqgörən siyasətinin nəticəsi olaraq Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən "Böyük İpək Yolu" layihəsi Azərbaycan Respublikasının sosail iqtisadi inkişafına və modernləşməsinə böyük təkan vermiş oldu.

Qərbə istiqamətlənən düşünülmüş siyasi kursun həyata keçirilməsi nəticəsində, xalqımızın haqlı narazılığına səbəb olan, məlum 907-ci düzəlişin ABŞ Prezidenti və Dövlət Katibinin konqresə müraciəti əsasında qüvvəsinin dayandırılmasını Heydər Əliyevin siyasətinin böyük uğurlarından saymaq olar.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun Azərbaycan üçün açdığı imkanları Cenevrədə İnformasıya Cəmiyyəti üzrə ümumdünya sammitindəki nitqində dəyərləndirən Prezident İlham Əliyev demişdir: "Ölkəmizin əlverişli coğrafi -siyasi mövqeyi Azərbaycanı Şərq- Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin vacib hissəsi etmişdir. Bu nəqliyyat dəhlizləri vasitəsilə Azərbaycana yeni bizneslər və yeni informasiya növləri axıb gəlir" (Mirzəzadə, 1998). Bu gün ölkəmizin dünya miqyasında yüksək hörmətə layiq görülməsi bu prinsiplərin uğurla həyata keçirilməsindən xəbər verir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi bunun siyasi sübutudur. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması üçün 155 dövlət Azərbaycanı dəstəkləmişdir. Azərbaycan Qoşulmama Hərəkatına üzv olarkən dünya birliyinin mütləq əksəriyyətinin dəstəyini qazanmışdır. Bu dəstək dərhal Qoşulmama Hərəkatının zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini əks etdirən qətnamədə də öz əksini tapmışdır. Azərbaycan dövlətinin xarici siyasətdə rəhbər tutduğu vəzifə və prinsiplərin əsas istiqamətləri aşağıdaskılardır.

-Ölkənin müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini regional və büynəlxalq təhlükəsizlik sistemi ilə sıx əlaqələndirmək;

-Azərbaycanın bütün beynəlxalq və regional təşkilatlarda təmsil olunması, sivil birgəyaşayış qaydaları ilə tənzimlənən böyük dünya siyasətinə qatılması, beynəlxalq və regional münasibətlərin həllində fəal iştirak etməsi zəmnində dünyanın siyasi xəritəsində yerinin möhkəmlənməsinə nail olmaq;

-Dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən Respublikanın iqtisadiyyatının, elminin və mədəniyyətinin inkişafında səmərəli amil kimi isdifadə etmək;

-Mənafeyi Azərbaycan dövlətçilik və milli mənafeləri ilə uyğun gələln dövlətlərin tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, Respublika beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək;

-Ölkənin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, müstəqil daxili vəxarici siyasət yeritməsi üçün əlverişli beynəlxalq şəraitin bərqərar olmasına çalışmaq;

-Əhalinin əsas hüquq və azadlığının qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaratmaq;

-Regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək;

-Azərbaycan xarici təzyiqlərin qarşısını alan və ya onları minimuma endirən beynəlxalq himayə mexanizminin yaradılmasına nail olmaq;

-Dövlətin bütün beynəlxalq, regional, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatında fəal iştirakına çalışmaq;

-Xalqın mənafeyinə tabe edilmiş xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası üçün bütün xarici və daxili amillərdən bəhrələnmək;

-xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr və geniş informasiya mübadiləsi mexanizmləri yaratmaq və s

-xalqların və millətlərin öz müqəddəratlarının təyin hüququna hörmət etmək, insan hüquqlarını və haqqlarını qorumaq;

-separatizmə, terrorizmə, dövlətlərin və xalqların təhlükəsizliyinə, maddi və mənəvi həyatına ziyan verə biləcək digər neqativ hallara qarşı mübarizə aparmaq;

-bəşəriyyəti və ayrı-ayrı dövlətlərin xalqlarını narahat edən qlobal problemlərin həlli istiqamətində birgə çalışmaq, bütün səyləri birləşdirmək;

-ikitərəfli əlaqələrdə beynəlxalq hüquq normalarının və sivil birgəyaşayış qaydalarını, başqa dövlətlərin, regional və beynəlxalq birliklərin mənfelərini nəzərə almaq.

**Nəticə**

Xarici siyasətimiz bütün istiqamətlər üzrə uğurla yürüdülməkdədir. Bakıda mütəmadi keçirilən beynəlxalq konfranslar, simpoziumlar, qlobal məsələlərin müzakirəsi ilə balğı mötəbər siyasətçi və alimlərin iştirak etdiyi toplantılar və s. ölkəmizin uğurlu xarici siyasət imkanlarından xəbər verir. Beynəlxalq Humanitar və İnternet İdarəçilik forumunun, Birinci Cənubi Qafqaz forumunun və digər beynəlxalq səviyyəli mühüm tətbirlərin Bakıda keçirilməsi ölkəmizin beynəlxalq imicinin yüksək səviyyəsinin təsdiqi üçün kifayətdir. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun müasir dünya reallıqları nəzərə alınmaqla, uğurla davam etdirilməsi sayəsində ölkəmizin beynəlxalq aləmdəki rolu və nüfuzu gün-gündən möhkəmlənməkdədir. Məhz bu reallıqlar imkan verdi ki, 44 gün ərzində torpaqlarımızı düşmən tapdağından azad edək. Bu gün Azərbaycan regionun söz sahibi olan ən qüdrətli dövlətinə çevrilmiş və inkişaf etmiş ölkələr sırasına daxil olmaq yolu ilə irəliləyir.

**Ədəbiyyat**

Heydər Əliyev. Minilliklərin qovşağında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. (2001).

Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995, qanun 2009 .

Azərbaycan Respublikası 1991-2001 XXI YNE -2001 səh,129

*Azərbaycan beynəlxalq aləmdə.* (1996). (I Cild).

(2001, 12 oktyabr). *Azərbaycan qəzeti.*

*Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi*, 2007, Kuzey reklam.

Mirzəzadə, R. (1998). *Azərbaycanı dünyaya tanıdan insan.* (Neşriyat yok).

(2003, 11 dekabr). *Azərbaycan qəzeti.*

(2012, 17 noyabr). *Azərbaycan qəzeti.*